# ŞUŞA ŞƏHƏRİNDƏ AQRAR-SƏNAYE KLASTERLƏRİNİN YARADILMASI İMKANLARI

**Mahir Muxtarov, Xanağa Babayev, Sevinc Quliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu, Bakı, Azərbaycan khanagafiz@gmail.com*

Yeni iqtisadi modellər və nəzəriyyələr sayəsində isbat olunub ki, əhalinin yaxşı iqtisadi təminatı ölkədə iqtisadi dirçəlişə səbəb olur. Şuşa şəhərində isə diqqət bütünlüklə iqtisadiyyata deyil, eyni zamanda müəyyən sahələrə və bu sahələrin seqmentlərinə yönəldilməlidir ki, turizm-logistika, suvenir istehsalı və s. həyata keçirilsin. Bu regionda iqtisadiyyatın qurulması üçün perspektiv və yeni mexanizmlər lazımdır ki, orada iqtisadi və sosial-mədəni şərait etibarlı müsbət dinamika qazansın. Bu məsələlərdə elmi araşdırmalar və alimlərin tövsiyələri bəzi ölkələrdə hökümətlərə əsas verir ki, "İnsan kapitalından" iqtisadi, elmi-texniki, əxlaqi-mənəvi və mədəni inkişafa güclü təkan verən mühüm biososial amil kimi istifadə olunsun. Azərbaycan əhalinin maddi rifahının yaxşılaşdırılması sahəsində uğurlara görə dünyanın qabaqcıl ölkələri sırasındadır.

Milli səviyyədə rəqabətədavamlılığın səmərəliliyi məhsuldarlıqdan çox dərəcədə asılıdır. Məhsuldarlığı isə əmək ehtiyatları və ölkənin kapitalı təmin edir. Dünya bazarında müvəffəqiyyət qazanan sahələrin təhlilinin nəticələrindən bilavasitə irəli gələn rəqabətədavamlılıq haqqında məsələyə yanaşma ənənəvi ideologiyadan və ya müasir intellektual texnologiyalardan asılı deyil. Biz sadəcə bilməliyik ki, burada nə, necə işləyir, daha sonra təcrübədə hansı mexanizmləri tətbiq etmək lazımdır.

İnnovasiya yönümlü regional iqtisadiyyata şirkətlərin, sahələrin və ya sektorların istehsal və ya xidmət kimi ənənəvi qruplaşmaları prizmasından deyil, klasterlərin prizmasından baxmaq lazımdır. Bu baxımdan vacib əlaqələrdən, sahələrin bir-birini tamamlamasından, texnologiyanın, təcrübənin, informasiyaların yayılmasından, marketinqdən, həmçinin firmaların və sahələrin ortaya çıxan istehlakçının ehtiyaclarının dərk edilməsindən klaster sahələrində daha yaxşı istifadə olunur. Respublikamızda Milli İnnovasiya Sistemi təşkil etmək və burada innovativ ideyalar və təkliflər bankı yaratmaq üçün intellektual mülkiyyətimizin əsas yaradıcılarına dövlət və özəl sektordan mütləq yetərincə təsirli və müsbət yönümlü yardımçı impulslar verilməlidir. Belə dəstək yüksək maliyyələşdirmə və təşkilatlanma baxımından olarsa, o zaman Milli İnnovasiya Sistemimiz elmi, texnoloji və iqtisadi cəhətdən böyük səmərə verən yeni struktur və funksional qurum kimi tez formalaşa bilər. Burada gənc innovator resurslarının hazırlanması və toplanması işinə xüsusi diqqət və qayğı olmalıdır, qənaət və korrupsiya hallarına yol verilməməlidir.

Milli İnnovasiya Sisteminin fəaliyyətində lazımi dinamika və effektivlik naminə yeni iş metodları, yeni texnoloji layihələr və innovativ klasterlərlə çıxış edən ayrı-ayrı intellektual kreativ qruplar və şəxslərə diqqət artırılmalı, onların təşəbbüsləri diqqətdən yayınmamalı, innovasiyalar sahəsində qərarların qəbulu kollegial və mərkəzləşdirilmiş qaydada olmalıdır.

Klaster iştirakçılarının əksəriyyəti öz aralarında birbaşa rəqabət aparmırlar, sadəcə sahənin müxtəlif seqmentlərinə xidmət edirlər. Coğrafi yaxın qarşılıqlı əlaqəli şirkətlər və onlarla bağlı müəyyən sferada hərəkət edən ümumi fəaliyyətləri ilə səciyyələnən bir-birini qarşılıqlı tamamlayan təşkilatlar klaster qrupuna daxil olunmalıdır. Klasterlər qrupu bir çox həm iri, həm də daha dar fəaliyyət sahələrini və hətta biznesin bəzi lokal növlərini (restoran işi, avtomobil ticarəti, antikvar mağazalar şəbəkələri) qarşılıqlı tamamlayacaq. Onlar həm iri, həm də kiçik həcmli olmaqla şəhər və ya kəndlərdə, həmçinin coğrafi bölmənin bir neçə səviyyəsində (dövlət, paytaxt, regionlar və şəhərlər səviyyəsində) iştirak edəcəklər.

Belə əlaqələr rəqabət mübarizəsinin, məhsuldarlığın artımının, xüsusilə, yeni biznesin yaranması istiqamətlərinin və intensivliyinin təyininin və innovasiyaların tədbiqinin əsasını təşkil edir.

Klasterlər regional iqtisadiyyatın tədqiqi üçün iqtisadi göstəricilərin nizama salınmasının dəqiq üsulunu təşkil edir. Regionun məhsuldarlığı və tərəqqisi firmaların hansı sahədə rəqabət aparmağından deyil, necə rəqabət aparmasından asılıdır. Əgər firmalar müasir metodlardan, mütərəqqi texnologiyadan istifadə edirsə, istənilən sənaye sahəsində daha yüksək məhsuldarlıqla keyfiyyətli mallar və xidmətlər təklif edə bilərlər.

Beləliklə, Qarabağ regionunun rifahı orada yerləşən firmaların fəaliyyət göstərdiyi sferaların məhsuldarlığından asılıdır. Bu, əldə olunan gəlirlərin yüksək səviyyəsinin təmin olunmasına gətirib çıxaracaqdır.

Qarabağ regionunda iqtisadiyyatın inkişafına şərait yaradan klasterlər aşağıdakı amillərlə şərtləndirilir:

- rəqabətin yeni metodlarının yaranması, fəallığın artırılması, daxili və beynəlxalq bazara çıxış imkanlarının gücləndirilməsi;
- regionda kiçik və orta biznesin inkişafına imkanın yaradılması;
- regionun inteqrasiya potensialının gücləndirilməsi;
- xarici investorların regiona cəlb edilməsi.

Klasterlərin sərhədləri bütün firmaları, sahələri, həmçinin aralarında həm üfüqi, həm də şaquli və ya struktur kimi güclü əlaqələri olan təşkilatları əhatə etməlidir.